# 20 Yanvar-tariximizin qan yaddaşı






Təqvimə nəzər salsaq görərik ki, müasir Azərbaycan tarixində əlamətdar, yaddaqalan günlərlə yanaşı, üzüntülü, faciəvi həm də qürurverici günlər də vardır. Məhz " 20 yanvar " tarixi belə günlərdən biridir. SSRİ deyilən böyük bir imperiya süquta uğramaq üzrə idi. O vaxtkı SSRİ rəhbərliyinin ermənilərə verdiyi imkandan istifadə edərək ermənilər Qarabağda qətllər törədir, meşələri qırır, azərbaycanlılar yaşayan kəndlərdə kəndlərin boşaldılmasını tələb edirdilər. SSRİ rəhbərliyi isə bütün bunlara susurdular. Bakıda isə bütün bu olanlara etiraz olaraq xalq ayağa qalxır, mitinqlər keçirirdilər. Nəhayət, Azərbaycan xalqının gözünü qırmaq üçün Moskva xəlvət qərar qəbul edir və Sovet qoşunlarını gecə ikən Bakı küçələrinə salır, qırğınlar törədilir, insanlar şəhid olur. Bir vaxtlar sıralarında hərbi xidməti kişilik məktəbi adlandırdığımız Sovet Ordusu nakişilik edir, dinc əhaliyə qarşı atəş açır. Bütün bunlar tarixdir, acı tarix, milli qürurumuzun formalaşmağa başlandığı tarix. O vaxtı Azərbaycan tam yiyəsiz idi, rəhbərlik qaçmışdır, ölkə yiyəsiz idi. Məhz belə çətin və ağır zamanda o dövrdə Moskvada yaşayan Ulu öndər Heydər Əliyev səhətinin normal olmamasına baxmayaraq, Azərbaycanın daimi nümayəndəliyinə gəldi, mətbuat vasitəsilə bütün dünyaya SSRİ rəhbərliyinin birbaşa məsuliyyət daşıdığını bəyan etdi.Sonradan Azərbaycan rəhbərliyinə gətirilən Ulu öndər elə "20 yanvar " faciəsinə də hüquqi qiyməti prezidentlik dövründə geniş müzakirəyə çıxardıqdan sonra verdi.

Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir.Ulu öndər Heydər Əliyev siyasətini dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev 20 yanvar əlillələri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb. Həmçinin Dövlət başçımız 5 yanvar 2023-cü ildə 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalamışdır. Müvafiq Fərmana əsasən 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 manat müəyyən edilmişdir. Bütün bunlar Prezidentimizin Şəhid ailələrinə nə qədər dəyər verdiyinin, həssaslıqla yanaşdığının bariz nümunəsidir. Bu gün Azərbaycan öz müstəqilliyinin şərəfli dövrünü yaşayır. Müstəqil ölkə kimi regionun ən nüfuzlu söz sahibidir.Qürur hissi ilə deyə bilərik ki, bu gün həm ulu öndər Heydər Əliyevin, həm də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən ordusunu darmadağın edərək, 30 ilə yaxın müddət ərzində erməni tapdağında olan torpaqlarımızı işğaldan azad etdi.Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Bu şərəfli yolda canlarından keçmiş Şəhidlərimiz heç vaxt yaddan çıxmayacaq, Onların əziz xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaqdır.

***Sahib Şükürov Göyçay rayon təşkilatının sədri***